# Kişinin camaatla qıldığı namaz, evində və ya bazarda qıldığı namazdan iyirmi və bir neçə qat daha üstün olur

Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: Kişinin camaatla qıldığı namaz, evində və ya bazarda qıldığı namazdan iyirmi və bir neçə qat daha üstün olur. Bu ona görədir ki, bir kəs gözəl bir şəkildə dəstəmaz alaraq məscidə gedərsə və onu məscidə aparan yalnız namaz olarsa, namazdan başqa bir şeyi istəməzsə, məscidə girənə qədər atdığı hər adıma görə bir dərəcə yüksələr və atdığı hər adımla bir günahı silinər. Məscidə daxil olub namazı gözlədiyi müddətdə isə namazda sayılır. O, namaz qıldığı yerdə olduğu və heç kəsə əziyyət vermədiyi və dəstəmazını pozmadığı müddətdə, mələklər onun üçün dua edib deyərlər: "Allahım ona rəhm et, Allahım onu bağışla, Allahım onun tövbəsini qəbul et!"

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, bir müsəlman camaatla namaz qılarsa, onun bu namazı evində və ya bazarda qıldığı namazdan iyirmi və bir neçə qat daha fəzilətli olar. Sonra bunun səbəbini demişdir: Bir şəxs dəstəmaz alarsa və dəstəmazını ən gözəl şəkildə tamamlayarsa, sonra məscidə yalnız namaz qılmaq niyyəti ilə gedərsə, atdığı hər addımda bir dərəcə məqamı yüksəldilər və bir günahı bağışlanar. Məscidə girdikdə oturub namazı gözləsə, namazı gözlədiyi müddətcə namazın əcrini və savabını alar. Namaz qıldığı yerdə olduğu müddətcə isə mələklər ona dua edər və deyərlər: Dəstəmazını pozmadıqca və insanlara və mələklərə zərər verəcək bir şey etmədiyi müddətcə ""Allahım, onu bağışla, Allahım ona mərhəmət et və Allahım onun tövbəsini qəbul et"

https://sunnah.global/hadeeth/az/show/4566